**ADA UNİVERSİTETİ**

**TƏHSİL MƏKTƏBİ**

**TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ İXTİSASININ**

**MAGİSTR DƏRƏCƏSİ ÜZRƏ TƏLƏBƏLƏRİN QİSMƏN**

**DƏRƏCƏLƏNDİRİLMƏSİ ÜÇÜN**

**LAYİHƏ ƏSASLI TƏDQİQAT TƏQDİM EDİLDİ**

# "GÜRCÜSTANIN KVEMO KARTLİ BÖLGƏSİNDƏ PEŞƏ TƏHSİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ: PROBLEMLƏR VƏ HƏLL YOLLARI"

Aygün Göyüşova, Liaman Bairamova, Nurida Valieva

**Bakı, Azərbaycan**
**© 2025**

# HƏQİQİLİK BƏYANATI

Biz ADA-nın plagiat siyasəti ilə tanış olduq və təsdiq edirik ki, "Gürcüstanın Kvemo Kartli bölgəsində Peşə Təhsilinin təkmilləşdirilməsi: Problemlər və həll yolları" adlı bu məqalənin məzmunu bizim öz işimizdir və heç bir təsdiq olunmamış əsəri ehtiva etmir.

İmza:________________________________________

İmza:________________________________________

İmza:________________________________________

**Tarix:______________________________**

**Layihə Əsaslı Tədqiqatın Təsdiq Forması**

Tələbə Adı/ Soyadı: Aygün Göyüşova

Tələbənin ID nömrəsi:  P000018633

Proqramın adı: MAEM (Təhsilin Təşkili və İdarə edilməsi üzrə Magistr)

Tələbə Adı/ Soyadı: Liaman Bairamova (Karakova)

Tələbənin ID nömrəsi: P000019446

Proqramın adı: MAEM (Təhsilin Təşkili və İdarə edilməsi üzrə Magistr)

Tələbə Adı/ Soyadı: Nurida Valieva

Tələbənin ID nömrəsi: P000018726

Proqramın adı: MAEM (Təhsilin Təşkili və İdarə edilməsi üzrə Magistr)

Akademik istiqamətin seçilməsi:

Tədqiqat istiqaməti                    Peşəkar istiqamət

Şərhlər:

Kurs Müəllimi: Dr. Rza Məmmədov

Elmi Rəhbər: Dr. Aynur Ağazadə

Təhsil Məktəbinin dekanı: Dr. Ülviyyə Mikayılova

## Xülasə

Bu layihə əsaslı tədqiqat Gürcüstanın Kvemo Kartli bölgəsində təhsil alan yuxarı sinif şagirdlərinin peşə təhsilinə münasibətini, marağın aşağı olmasının səbəblərini və bu sahəyə marağın artırılması üçün zəruri ehtiyacları müəyyənləşdirməyi qarşısına məqsəd qoyur. Tədqiqatda keyfiyyət yönümlü metodologiyanın fenomenoloji yanaşması tətbiq edilmişdir.

Araşdırma Kvemo Kartlidə yerləşən üç ictimai məktəbdə həyata keçirilmiş, sadə təsadüfi seçim üsulu ilə 15 yuxarı sinif şagirdi ilə yarı-strukturlaşdırılmış müsahibələr aparılmışdır. Məlumat toplama aləti kimi 10 sualdan ibarət yarı-strukturlaşdırılmış müsahibə vərəqindən istifadə olunmuşdur.

Tədqiqat nəticələri göstərir ki, şagirdlər arasında peşə təhsilinə maraq ümumilikdə aşağı səviyyədədir. Bu vəziyyətin başlıca səbəbləri sırasında peşə təhsili və mövcud ixtisaslar barədə yetərli məlumatın olmaması, ailə və cəmiyyətin ali təhsilə üstünlük verməsi, peşə təhsilinin sosial dəyərinin aşağı qiymətləndirilməsi, qəbul prosedurlarının və gələcək karyera imkanlarının qeyri-müəyyənliyi qeyd olunur. Nəticədə, şagirdlər peşə təhsilini əsas seçimdən çox alternativ bir çıxış yolu kimi qəbul edirlər.

Araşdırma eyni zamanda vurğulayır ki, peşə təhsilinə marağın artırılması üçün genişmiqyaslı maarifləndirmə tədbirləri, müasir və cəlbedici tədris mühiti, əmək bazarının tələblərinə uyğun yeni ixtisasların yaradılması və valideynləri də əhatə edən informasiya təşəbbüsləri mühüm rol oynaya bilər. Şagirdlər daha çox vizual, interaktiv və praktik təqdimatlara məruz qaldıqda bu sahəyə maraqları əhəmiyyətli dərəcədə artır.

Son nəticə olaraq, tədqiqat həm problemin əsas səbəblərini, həm də onun aradan qaldırılması üçün tətbiq oluna biləcək praktiki yanaşmaları təqdim edərək peşə təhsilinə münasibətin dəyişdirilməsinə töhfə verməyi hədəfləyir.

## Təşəkkürlər

Elmi rəhbərimiz Dr. Aynur Ağazadəyə layihə əsaslı tədqiqat işimizdə komandamıza rəhbərlik etmək üçün sərf etdiyi vaxtla yanaşı, hərtərəfli dəstəyə görə təşəkkür edirik. Biz tədqiqatımızı onun faydalı və öyrədici rəyi ilə inkişaf etdirdik və onun elmi rəhbərliyi ilə tədqiqat zamanı qarşılaşdığımız problemlərimizi həll etdik. Dr. Rza Məmmədovun tədqiqat işimiz zamanı olan əməyi də danılmazdır. Layihə əsaslı tədqiqatı bizə öyrətdiyi və suallarımıza hər zaman aydın, dolğun, izahlı şəkildə cavab verdiyi üçün ona təşəkkür edirik.

Gürcüstanın Kvemo Kartli regionundakı üç dövlət məktəbindən olan iştirakçılarımıza, xüsusən də tədqiqatımızda sevərək iştirak edən məktəblilərə minnətdarlığımızı bildiririk. Onların cavabları layihə əsaslı tədqiqat işimizi araşdırmaqda və təhlil aparmaqda bizim üçün çox faydalı oldu. Tədqiqat zamanı məktəblilərin səmimiyyəti çox yüksək qiymətləndirildi.

Nəhayət, ailəmizin dəstəyini qeyd etməsək onlara qarşı haqsızlıq etmiş olarıq. Onların bizə olan dəstəyi və inamı bütün proses boyu bizim üçün həm yaxşı motivasiya, həm də müsbət əhval-ruhiyyə yaratmağa kömək etdi.

**Mündəricat**

**I FƏSİL** .......... **10**

**GİRİŞ** .......... **10**

Problemin ifadəsi .......... **12**

Layihənin məqsədi .......... **13**

Layihənin tədqiqat sualı .......... **13**

Layihənin aktuallığı .......... **14**

Layihənin əhəmiyyəti .......... **15**

Layihənin məhdudiyyətləri .......... **16**

**II FƏSİL** .......... **17**

**ƏDƏBİYYAT İCMALI** .......... **17**

**III FƏSİL** .......... **24**

**METODOLOGİYA** .......... **24**

Layihənin dizaynı .......... **16**

Tədqiqat sahəsi ........ 25

Nümunə ölçüsü və seçmə strategiyası ........ 25

Məlumat toplama prosesi ........ 25

Məlumatların təhlili ........ 26

Validlik və Etibarlılıq ........ 27

Layihənin etik mülahizələri ........ 28

**IV FƏSİL** ........ 30

Pilot Tətbiqetmə ........ 30

**TAPINTILAR** ........ 30

**V FƏSİL** ........ 46

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........ 46

**VI FƏSİL** ........ 52

**SON MƏHSUL** ........ 52

**ƏDƏBİYYAT** ........ 56

**ƏLAVƏLƏR** ........ 64

Əlavə A: Etik sözləşmə forumu ........ 64

Əlavə B: Müsahibə protokolu ........ 65

Əlavə C: Müsahibə-müşahidə vərəqi ........ 69

Müsahibə vərəqinin təhlili və şərhi üçün rəy ........ 73

# I FƏSİL

## GİRİŞ

Peşə təhsili təhsilin müxtəlif səviyyələrində fərdləri müəyyən xüsusi peşələrə, sənətkarlığa və karyera istiqamətlərinə hazırlamaq üçün nəzərdə tutulmuş formal təhsil proqramlarına aiddir (Khurniawan, Sailah, & Muljono, 2021; Wagiran, Pardjono, & Cahyaningrum, 2020). Peşə təhsili xüsusi peşələr üçün lazımi bacarıq və biliklər verən təhsil sahəsi olub, tələbələrin bu təhsil sahəsini bitirdikdən sonra işçi qüvvəsinə daxil olmağa hazır olmalarını təmin etmək məqsədi daşıyır (Indaryani, Muchtar, & Musnir, 2020). Peşə təhsilinin üç səviyyəsi vardır: orta təhsil, orta təhsildən sonrakı səviyyə və yetişkinlər üçün təhsil. Orta təhsil səviyyəsində peşə təhsilinə tələbələri ilk növbədə müəyyən sahələrdə işə hazırlayan peşə liseyləri və proqramları daxildir (İsmayati, 2018). Orta təhsildən sonrakı səviyyəyə daha təkmil təlim və təhsil təklif edən icma kollecləri, peşə məktəbləri və texniki institutlar daxildir, bu da tez-tez sertifikasiya proqramlarına və ya dosentlik dərəcələrinə aiddir (Li, 2011). Yetişkinlər üçün peşə təhsili işlə bağlı bacarıqlara diqqət yetirir və ona mentorluq, iş yerində təlim və davamlı təhsil proqramları aid ola bilər (Dortch, 2013). Peşə təhsilinin əsas xüsusiyyətlərindən biri odur ki, effektiv peşə təhsili proqramları tez-tez kurikulumun cari işçi qüvvəsi tələblərinə və standartlarına cavab verməsini təmin etmək üçün sənayelərlə sıx əməkdaşlığı əhatə edir (Yoto, 2016). Bu təhsil proqramları həm müəyyən peşələrə xas olan texniki bacarıqları, həm də tənqidi düşünmə, problem həll etmə və uyğunlaşma kimi ümumi bacarıqları özündə əks etdirir (Horvitz, Mitchell, Garcia, & Singleton, 2020).

Peşə təhsili yalnız fərdlərin deyil, həm də bütövlükdə cəmiyyətin iqtisadi inkişafında mühüm rol oynayır və məzunları praktik bacarıqlarla təmin edir, bu da əmək bazarında onların rəqabət qabiliyyətini artırır. OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı)-nin hesabatında qeyd edilir ki, peşə təhsili iqtisadi inkişaf üçün mühüm vasitədir və yerli əmək bazarının tələblərinə uyğun kadr hazırlığını təmin edir (OECD, 2022).

Bu təhsil növü müasir cəmiyyətdə məktəblilərin gələcək karyera seçimlərinə və maraqlarına təsir edən mühüm amillərdən biridir. Lakin bir çox ölkədə olduğu kimi, Gürcüstanda da peşə təhsili kifayət qədər populyar deyil və onun cəlbediciliyi, aşağı səviyyədədir (Patatişvili, 2023). Eyni zamanda Gürcüstanın Milli  Statiskasında da ali təhsillə müqayisədə peşə təhsili seçiminin az olduğu qeyd edilir.

Gürcüstanın Təhsil və Elm Nazirliyi (GTEN) (2024) tərəfindən hazırlanan "Peşə təhsili və təlim strategiyası 2024-2030" sənədində bu sahəyə marağın artırılması üzrə müxtəlif tədbirlər təsvir olunmuşdur. Bu strategiyada yerli sənaye və texnologiya sektorları ilə əməkdaşlıq, əmək bazarının dəyişən tələblərinə uyğun proqramların hazırlanması və gənclər üçün praktiki bacarıqların qazanılması əsas prioritet kimi göstərilir. Məktəblilərin peşə təhsilinə marağını artırmaq üçün tədris proqramlarının müasir texnologiyalara uyğunlaşdırılması və məlumatlandırıcı təlimlərin təşkili vacibdir. Gürcüstanın peşə təhsilinin əsas məqsədlərinə aşağıdakılar daxildir:

- Təhsil tələblərinin qarşılanması: Məzunların məşğulluğunu artırmaq üçün təlim proqramlarının bazar tələblərinə uyğun olmasını təmin etmək, peşə təhsilinin xüsusi tələblərini müəyyən etmək və yerinə yetirmək (GTEN, 2024).
- Rəqabətli kadrların hazırlanması: İxtisaslı və rəqabətqabiliyyətli kadrların hazırlanması regionun iqtisadi inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Onların məşğulluğu üçün əlverişli şəraitin yaradılması təkcə fərdin həyat səviyyəsini gücləndirmir, həm də daha geniş iqtisadi çərçivədə töhfə verir (Gürcüstanın Peşə Təhsili haqqında Qanunu, 2018).

Gürcüstanın Kvemo Kartli regionunda peşə təhsilinə marağın az olması ilə mübarizə aparmaq üçün əsas problemləri anlamaq və effektiv həll yolları təklif etmək vacibdir. Araşdırmalar göstərir ki, dil maneələri, sosial-iqtisadi uyğunsuzluqlar və mədəni qavrayışlar kimi faktorlar bu tənəzzülə səbəb olur. Məsələn, Mamukashvilinin (2023) araşdırması göstərir ki, Gürcüstanda dominant olmayan etnik qruplardan olan gənclər dil və mədəni fərqlər də daxil

olmaqla, ali və peşə təhsili almaqda əhəmiyyətli maneələrlə üzləşirlər. Bundan əlavə, Gürcüstanın Milli Statistika İdarəsi (2023) bildirir ki, Kvemo Kartlidə digər bölgələrlə müqayisədə peşə təhsili müəssisələrinə qəbul olunan şagirdlərin faiz nisbəti daha azdır ki, bu da məqsədyönlü müdaxilələrə ehtiyac olduğunu göstərir. Bu problemlərin həlli regionda peşə təhsilinin cəlbediciliyini və əlçatanlığını artırmaq üçün dilə dəstək proqramları, icmaların iştirakı və iqtisadi stimullar daxil olmaqla hərtərəfli yanaşma tələb edir.

## Problemin ifadəsi

Gürcüstanın Kvemo Kartli bölgəsində peşə təhsilinə marağın azalması, bir sıra sosial, iqtisadi və təhsil amilləri ilə əlaqəli çoxşaxəli bir problemdir. Bu regionda peşə təhsili, ali təhsil ilə müqayisədə daha az prestijli və az cəlbedici sayılır, bu da şagirdlərin və onların valideynlərinin peşə təhsilini seçməkdən çəkinmələrinə səbəb olur (Zoidze, 2023; Abuselidze, 2023). Cəmiyyətdə peşə təhsilinə qarşı olan bu mənfi yanaşma, həmçinin bu sahənin karyera və sosial status baxımından daha az perspektivli olduğu düşüncəsinin yayılması ilə möhkəmlənir (Patatişvili, 2023).

Kvemo Kartli bölgəsindəki peşə təhsili müəssisələrinin resursları və infrastrukturunun zəifliyi dövlətin maliyyə dəstəyi ilə bağlı problemlər və peşə təhsilinə olan cəmiyyətdəki marağın azlığı bu sahənin inkişafını əngəlləyir (Lezhava, 2024; Sielke, 2011; Avtandilaşvili, 2019). Belə bir tendensiya bölgədəki yüksək işsizlik və məhdud iş imkanları, peşə təhsilinin gələcək perspektivlərini daha da zəiflədir. Bu amillər arasında, peşə təhsilinə dair yanlış təsəvvürlər və peşə təhsili ilə məşğulluq idarələrinin əməkdaşlığının zəif olması, təhsilalanların əmək bazarına uyğun bacarıqlara sahib olmamalarına gətirib çıxarır (Muthusamy, 2020; Zhang & Li, 2021).

Əlavə olaraq, yuxarı sinif şagirdlərinin peşə təhsili haqqında ümumi məlumatsızlığı bu sahəyə olan marağın azalmasına səbəb olur. Şagirdlər və valideynlər peşə təhsilinin gələcək

karyera perspektivləri və iş bazarına uyğunluğu barədə düzgün məlumatlara malik deyillər (Sabauri, 2023). Bu məlumatsızlıq, cəmiyyətdə peşə təhsilinə olan yanlış yanaşmaların dərinləşməsinə səbəb olur və bu sahənin cəlbedici olmasının qarşısını alır.

Gürcüstanın 2019 / 2025-ci illəri əhatə edən milli statistik məlumatlara əsasən, ali təhsilin bakalavriat və magistratura pillələrinə tələbə qəbulu sabit olaraq yüksək səviyyədə qalmaqda davam edir. Bu tendensiya, cəmiyyətin ali təhsilə yönəlmiş prioritetlərini və bu istiqamətdə formalaşmış ictimai gözləntiləri əks etdirir. Eyni zamanda, peşə təhsilinə qəbul göstəriciləri bütün dövrlər üzrə aşağı olaraq qalır və demək olar ki, dinamik dəyişiklik müşahidə olunmur. Bu fərqlilik Gürcüstanda, o cümlədən Kvemo Kartli bölgəsində peşə təhsilinə marağın nisbətən zəif olduğunu və bu sahənin cəlbediciliyinin artırılmasına ehtiyac duyulduğunu göstərir. Aşağıdakı vizual diaqram bu fərqi aydın şəkildə ortaya qoyur və tədqiqatda peşə təhsilinə marağın azlığının struktur səbəblərini təhlil etməyə zəmin yaradır.

**Gürcüstanın Milli Statiska**

| **İllər** | **Ali məktəb %** | **Peşə Məktəbi %** | **Faiz fərqi** |
|---|---|---|---|
| *2019-2020* | *72.73 %* | *27.27 %* | *45. 46 %* |
| *2020-2021* | *77.43 %* | *22,57 %* | *54 . 86 %* |
| *2021-2022* | *79.79 %* | *20.21 %* | *59. 58%* |
| *2022-2023* | *81.52 %* | *18.48 %* | *63. 04 %* |
| *2023-2024* | *84.70 %* | *15.30 %* | *69. 40 %* |

Bundan əlavə Gürcüstanın Peşə Təhsili İnkişaf Strategiyası (2021–2025) sənədində də qeyd olunduğu kimi, 2015–2024-cü illər üzrə təhlil peşə təhsilinə marağın ümumilikdə aşağı olduğunu və azalmağa meyl göstərdiyini ortaya qoyur. Regionlarda infrastrukturun məhdudluğu və ictimai rəyin təsiri nəticəsində peşə təhsili gənclər tərəfindən hələ də ikinci dərəcəli seçim kimi qiymətləndirilir.

Təqdim olunan statistik göstəricilər və strateji sənədlərin təhlili göstərir ki, Gürcüstanda ali təhsilə maraq davamlı olaraq yüksək səviyyədə qalır, peşə təhsilinə isə maraq nisbətən zəifdir və bu sahədə ciddi irəliləyiş müşahidə edilmir. Xüsusilə Kvemo Kartli bölgəsində bu tendensiya daha aydın nəzərə çarpır. Peşə təhsilinə marağın az olmasının əsas səbəbləri sırasında ictimai rəyin mənfi təsiri, regionlarda infrastrukturun və məlumatlandırmanın zəifliyi, eləcə də ali təhsilin sosial status göstəricisi kimi qəbul edilməsi yer alır. Bu durum göstərir ki, peşə təhsilinin daha cəlbedici və əlçatan olması üçün maarifləndirmə, struktur islahatlar və uzunmüddətli inkişaf strategiyalarına ciddi ehtiyac var.

## Layihənin məqsədi və tədqiqat sualı

Bu layihə əsaslı tədqiqatın məqsədi, Kvemo Kartli bölgəsinə xüsusi diqqət yetirməklə, Gürcüstanda peşə təhsilinə marağın az olmasına səbəb olan amilləri müəyyən etmək və bu təhsil sahəsinin cəlbediciliyini artırmaq üçün praktiki tövsiyələr təqdim etməkdir.

### Layihənin tədqiqat sualı

- Gürcüstanın Kvemo Kartli bölgəsində yuxarı sinif şagirdlərinin peşə təhsilinin əhəmiyyəti barədə fikirləri necədir və bu fikirləri formalaşdıran amillər hansılardır?

## Layihənin aktuallığı

Son dövrlərdə təhsildə aktual məsələlərdən biri, peşə təhsilinin əhəmiyyətinin artırılmasıdır. Bu, xüsusilə Gürcüstanın Kvemo Kartli bölgəsi üçün aktualdır, çünki burada peşə təhsilinə olan marağın az olması, bölgənin iqtisadi inkişafını və məşğulluq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır (Avropa Xarici Fəaliyyət Xidməti, 2022). Kvemo Kartli kimi regionlarda peşə təhsilinə marağın artırılması yalnız iqtisadi inkişafı dəstəkləmək deyil, həm də gənclərin əmək bazarına uyğun bacarıqlara sahib olmalarını təmin etməkdir. Bu, gələcəkdə işsizlik səviyyəsinin azalmasına və sosial rifahın artmasına şərait yarada bilər (Gürcüstanın Təhsil və Elm Nazirliyi, 2022).

Bu problemlə bağlı daha da əhəmiyyətli olan digər aspekt, peşə təhsilinin regional iqtisadiyyatda oynadığı roldur. Kvemo Kartlidə yerli sənaye ehtiyaclarına uyğun peşə təhsilinin təkmilləşdirilməsi, işsizlik səviyyəsini aşağı sala və gənclərə yeni məşğulluq imkanları təmin edə bilər (Cahyaningrum & Wagiran, 2019). Bununla yanaşı, peşə təhsilinə olan marağın az olması, yalnız iqtisadi problemlərlə bağlı deyil, həm də sosial bərabərsizliklə əlaqədardır. Bu səbəbdən, peşə təhsilinin əhəmiyyəti və bu sahənin təbliği Kvemo Kartlidə daha böyük aktuallıq kəsb edir. Peşə təhsilinin prestijinin artırılması, bu sahəyə olan marağı artıra və bölgənin sosial-iqtisadi inkişafına töhfə verə bilər.

Siyasət və İdarəetmə Məsləhətçi Qrupunun (PMCG) (2022) hesabatında vurğulanır ki, dövlət peşə təhsili müəssisələri Gürcüstanın bütün bölgələrində mövcud olsa da, Kvemo Kartli kimi kiçik bölgələrdə bu müəssisələr azdır.

Bundan başqa, Kvemo Kartli bölgəsində etnik azlıqların peşə təhsilinə çıxış imkanları da ciddi əhəmiyyət daşıyır. Dil maneələri və təhsil sisteminə çıxışın çətinlikləri, gənclərin peşə məktəblərinə müraciət etməməsinə səbəb olur (Kitiashvili, Abaşidze, & Jvania, 2016). Bu

problemlərin həlli, yalnız təhsil sahəsində deyil, həm də sosial və iqtisadi inkişafın artırılmasında mühüm rol oynaya bilər.

Bütün bu səbəblərə görə, bu layihə əsaslı tədqiqatın aktuallığı Kvemo Kartli bölgəsində peşə təhsilinə olan marağın az olmasının səbəblərini araşdırmaq və bu problemi həll etmək üçün uyğun strategiyalar təklif etməkdən ibarətdir. Layihə, bölgənin sosial-iqtisadi inkişafına mühüm töhfə verə və gələcəkdə gənclərin peşə təhsili sahəsinə daha çox maraq göstərməsini təmin edə bilər.

## Layihənin əhəmiyyəti

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına (2020) əsasən, peşə təhsilinin təkmilləşdirilməsi fərdlərin işçi qüvvəsində inkişaf etmək üçün lazımi bacarıqlara malik olmasını təmin etməklə, bu qlobal səyləri dəstəkləyir və bununla da uzunmüddətli sosial-iqtisadi sabitliyə töhfə verir (UNDP, 2020). Bu layihə əsaslı tədqiqat peşə təhsilinə marağı artıra, fərdləri əmək bazarının tələblərinə cavab verən bacarıqlarla təmin edə, bununla da işsizlik səviyyəsini azalda və iqtisadi inkişafı təşviq edə bilər.

Bu layihə əsaslı tədqiqatın nəticələri aşağıdakı səbəblərə görə əhəmiyyətlidir:

1. Kvemo Kartli bölgəsində şagirdlərin peşə təhsilinə marağının az olmasının səbəblərini araşdırmaq, peşə təhsilinin faydalarını daha yaxşı izah edə və bu sahəyə daha çox diqqət yetirilməsinə kömək edə bilər.
2. Bu layihə əsaslı tədqiqat, peşə təhsili barədə yerli əhalinin yanlış təsəvvürlərini aradan qaldıraraq , bölgədə peşə təhsilinə marağın artmasına və daha çox şagirdin bu sahəyə yönəlməsinə kömək edə bilər.
3. Araşdırmanın nəticəsi peşə təhsilinin inkişafına və regionun sosial-iqtisadi vəziyyətinə müsbət təsir göstərə bilər.

4. Layihə əsaslı tədqiqatın nəticəsi bu regionda peşə təhsilini təbliğ və inkişaf etdirmək üçün praktik həllər təklif edərək peşə təhsili haqqında daha çox kütlənin məlumatlanmasına və populyarlığının artmasına kömək edə bilər.

## Layihənin məhdudiyyətləri

Gürcüstanda, xüsusən Kvemo Kartli regionunda peşə təhsili ilə bağlı bu layihə əsaslı tədqiqat tapıntılara və onların ümumiləşdirilməsinə təsir edə biləcək bir sıra məhdudiyyətləri qəbul edir. Bu layihənin məhdudiyyətlərinə aşağıdakılar daxildir:

- Layihə əsaslı tədqiqatın nümunəsi Kvemo Kartli bölgəsinin müxtəlif demoqrafik xüsusiyyətlərini tam əks etdirməyə bilər. Müəyyən alt qruplar, xüsusən də etnik azlıqlar kifayət qədər təmsil olunmaya bilər, bu da nəticələrin əhatəliliyinə müəyyən təsir göstərə bilər.
- Coğrafi məhdudiyyət baxımından araşdırmanın yalnız Gürcüstanın Kvemo Kartli bölgəsində aparılması peşə təhsilinə olan marağın az olma səbəbləri haqqında geniş və müxtəlif kontekstdə ümumi nəticəyə gəlməyə mane ola bilər.
- Layihə əsaslı tədqiqat yalnız 2024-2025-ci tədris ilini əhatə edir, ona görə də nəticələr həmin dövr üçün keçərlidir. Gələcəkdə aparılacaq daha geniş araşdırmalar fərqli nəticələr göstərə bilər.
- Kvemo Kartli bölgəsində peşə təhsilinə dair məlumatların məhdud olduğu bir dövrə əsaslanır. Bölgədə peşə təhsili ilə bağlı məlumatların daha geniş miqyasda toplanması və daha çox tərəflərin iştirakı ilə aparılacaq tədqiqatlar nəticələri zənginləşdirə bilər.
- Layihə əsaslı tədqiqatın yalnız məhdud sayda məktəbdə bir neçə qrup iştirakçı ilə aparılması və müxtəlif etnik qrupların təmsil olunmaması nəticələrin əhatəliliyini azaldır.

# II FƏSİL

# ƏDƏBİYYAT İCMALI

Peşə təhsilinin dünya miqyasında təhsil sistemlərinin mühüm komponenti kimi getdikcə daha çox tanınması onun iqtisadi inkişaf, sosial mobillik və cəmiyyətlərin ümumi rifahı üçün əhəmiyyətini vurğulayan müxtəlif tədqiqatlarda sənədləşdirilmişdir. OECD-nin 2010-cu il hesabatında "İşlər üçün öyrənmə" peşə təhsili və təlimi (VET) sistemlərinin əmək bazarının ehtiyaclarına cavab verməsi zərurətini vurğulayır (OECD, 2010). Eynilə, YUNESKO-nun “2016-2021-ci illər üzrə Texniki və Peşə Təhsili və Tədrisi Strategiyası” gəncləri və böyükləri məşğulluq, layiqli iş və ömürboyu təhsil üçün tələb olunan bacarıqlarla təchiz etmək üçün texniki və peşə təhsili sistemlərinin aktuallığının artırılmasına yönəlmiş əsas siyasət sahələrini və tədbirləri müəyyən edir. (YUNESKO, 2016). Bir çox ölkələrdə peşə təhsili əhəmiyyətli islahatlara məruz qalıb, ikinci dərəcəli seçim kimi qəbul olunmaqdan ciddi əhəmiyyət kəsb edən, əsaslı karyera imkanları təklif edən əsas təhsil forması hesab edilməyə keçib. Bu dəyişikliyə ixtisaslı işçi qüvvəsinə olan iqtisadi tələblər, ömür boyu öyrənmə ehtiyacı, işə və təhsilə cəmiyyətin münasibətinin dəyişməsi kimi amillər səbəb olmuşdur. OECD-nin “İşlər üçün Öyrənmə” hesabatı bu inkişaf edən tələblərə cavab vermək üçün peşə təhsili sistemlərinin necə dizayn oluna biləcəyini müzakirə edir. Bu sənədlər ümumi şəkildə iqtisadi artımın təşviqində, sosial mobilliyin artırılmasında və ictimai rifahın yaxşılaşdırılmasında peşə təhsilinin mühüm rolunu vurğulayır (OECD, 2010). Peşə təhsili tələbələri müxtəlif sənaye sahələrində lazım olan praktiki və texniki bacarıqlarla təchiz etməklə onları işçi qüvvəsinə hazırlamaqda mühüm rol oynayır.

Gürcüstan hökumətinin 2017-2021-ci illər üçün Təhsil və Elm üzrə Vahid Strategiyasına əsasən, Gürcüstanda peşə təhsili və təlimi (VET) bir sıra sistemli problemlərlə, o cümlədən köhnəlmiş kurikulumlar, işəgötürənlərin qeyri-kafi əlaqəsi və ən əsası, cəmiyyətin stiqması ilə üzləşir. Gürcüstanın Peşə təhsili və təlim sistemi bu problemlərlə, xüsusən də əmək bazarının

tələblərinə uyğun gəlməyən köhnəlmiş kurikulumlarla mübarizə aparmaqda davam edir. Gürcüstanda peşə təhsili və təliminin (VET) əhəmiyyəti bir sıra tədqiqatlarda, xüsusən də iqtisadiyyatı və əmək bazarını yenidən formalaşdıran COVID-19 pandemiyasından sonra xüsusilə qeyd edilməyə başlanmışdır (Giguashvili və digərləri, 2022). Giguashvili və Makasarashvili (2023) qeyd ediblər ki, Gürcüstanda pandemiyadan sonrakı iqtisadiyyat əmək bazarının qeyri-sabitliyi, bacarıq uyğunsuzluğu və yaxşı qurulmuş peşə təhsili proqramlarının olmaması da daxil olmaqla problemlərlə doludur. COVID-19 pandemiyası bu boşluqları aradan qaldıran və məşğulluğu artıran innovativ təhsil həllərinə ehtiyac olduğunu göstərdi. Dünya Bankının (2022) məlumatına görə, Gürcüstanda insan kapitalının inkişafı əhəmiyyətli narahatlıq doğurur, ölkənin peşə təhsili sistemi inkişaf edən əmək bazarının tələblərinə tam cavab vermir. Hökumətin təhsil sistemində islahatların aparılması və peşə təhsilini təşviq etmək səylərinə baxmayaraq, məsələn, Vizyon 2030 İnkişaf Strategiyasında peşə təhsili xüsusən Kvemo Kartli kimi bölgələrdə (Vizyon 2030 İnkişaf Strategiyası, 2022) lazımi səviyyədə qiymətləndirilmir. Hökumət texniki və peşə təhsilini iqtisadi inkişafın əsas strategiyası kimi prioritetləşdirib, lakin kurikulumun köhnəlmiş xarakteri, müasir infrastrukturun olmaması və müəllim hazırlığına kifayət qədər investisiya qoyulmaması səbəbindən onun təsiri məhdud olub (Giguashvili & Makasarashvili, 2022).

Gürcüstanda, xüsusən də Kvemo Kartli regionunda güclü peşə təhsili sisteminə ehtiyac böyük əhəmiyyət kəsb edir, çünki ölkə öz işçi qüvvəsinin bacarıqlarını inkişaf edən iqtisadiyyatın tələbləri ilə uyğunlaşdırmağa çalışır. Tarixən bu bölgə səmərəli peşə hazırlığı proqramlarının inkişafına mane olan mühüm sosial-iqtisadi problemlərlə üzləşmişdir. Məşğulluğun artırılmasında və iqtisadi artımın təşviqində peşə təhsilinin əhəmiyyətinin artan tanınmasına baxmayaraq, Kvemo Kartli qeyri-adekvat infrastruktur, qeyri-kafi maliyyələşdirmə və ixtisaslı təlimçilərin çatışmazlığı kimi problemlərlə mübarizəni davam etdirir. Bu maneələrin aradan qaldırılması təkcə fərdi karyera perspektivlərini yaxşılaşdırmaq

üçün deyil, həm də regional inkişafı stimullaşdırmaq üçün çox vacibdir. Kakutiyanın (2017) "Peşəkar təhsilin planlaşdırılması və inkişafında yerli əmək bazarının rolu" adlı tədqiqatı Gürcüstanda peşə təhsili ilə bağlı çətinliklər və imkanlar haqqında əsaslı anlayışı təmin edir. Onun işi peşə təhsili təşəbbüslərinin yerli əmək bazarının tələbləri ilə uyğunlaşdırılmasının tədqiqində mühüm əhəmiyyət kəsb edir, regional iqtisadi bərabərsizliklərin aradan qaldırılması və davamlı inkişafın təşviqi üçün mühüm amildir.

Peşə təhsili ixtisaslı işçi qüvvəsinin yetişdirilməsi və əmək bazarının ehtiyaclarının qarşılanması üçün mühüm əhəmiyyət kəsb edir. Eynilə, Gigiberia (2018) nəzəri biliklər və praktiki bacarıqlar arasındakı boşluğu aradan qaldırdığını iddia edərək, peşə təhsilinin iqtisadi və biznesin inkişafındakı rolunu vurğulayır. Çxenkeli (2022) peşə təhsilinin keyfiyyətini artırmaq və onu Avropa standartlarına uyğunlaşdırmaq üçün Gürcüstanın Təhsil və Elm Nazirliyinin davamlı səylərini təsvir edir. Bu səylərin əsas məqsədi peşə təhsilinin ali təhsilə uyğun alternativ kimi qəbulunu yüksəltməkdir. Kvemo Kartli regionunda peşə təhsili qavrayışı aşağı səviyyədədir. Bir çox valideynlər və şagirdlər peşə təhsilini ənənəvi akademik yollar üçün ikinci dərəcəli seçim kimi görürlər (Chkhenkeli, 2020). Bu stiqma qismən universitet təhsilini texniki bacarıqlardan üstün tutan ictimai münasibətdən qaynaqlanır. Bundan əlavə, Təhsilin Keyfiyyətinin Artırılması üzrə Milli Mərkəz (2020) peşə təhsili proqramları və onların faydaları haqqında məlumatsızlığı əhəmiyyətli maneə kimi müəyyən edir. Peşə proqramları ilə yerli əmək bazarı arasında məhdud uyğunlaşma problemi daha da gücləndirir. Əhəmiyyətli kənd təsərrüfatı fəaliyyətinin olduğu bir bölgə olan Kvemo Kartlidə peşə proqramları müasir kənd təsərrüfatında tələb olunan bacarıqları adekvat şəkildə əhatə etməmişdir (Gürcüstanın Davamlı İnkişaf və Kənd Təsərrüfatı Nazirliyi, 2017). İnfrastruktur və resurs məhdudiyyətləri də mühüm problemlərdir. Gürcüstanın Təhsil və Elm Nazirliyi (2020) bildirir ki, bir çox peşə müəssisələrində müasir avadanlıq və ixtisaslı müəllimlər yoxdur ki, bu da təhsil və təlimin keyfiyyətini aşağı salır. Bu qeyri-adekvatlıq yuxarı sinif şagirdlərini qeydiyyatdan keçməkdən

çəkindirir və məktəbi tərk etmə hallarının yüksək olmasına səbəb olur. Makasarashvili və digərlərinin tədqiqatı (2022) göstərir ki, Gürcüstanda peşə təhsili ilə bağlı sosial stiqma hökm sürür. Xüsusilə kənd yerlərində texniki təhsilə tarixi münasibətdən qaynaqlanan bu stiqma, peşə təhsilini şagirdlər və onların ailələri üçün daha az cəlbedici edir. Bundan əlavə, təklif olunan peşə proqramları ilə əmək bazarının tələb etdiyi bacarıqlar arasında uyğunsuzluq var. Gürcüstanın Milli Statistika İdarəsinin (2023) qeyd etdiyi kimi, Gürcüstandakı peşə təhsili müəssisələri, o cümlədən Kvemo Kartlidəki peşə təhsili müəssisələri İT, bərpa olunan enerji və istehsalat kimi sənayelərin sürətlə dəyişən ehtiyaclarına uyğun gəlmir. Bu boşluq məzunların zəif işlə təmin olunması ilə nəticələnir ki, bu da yuxarı sinif şagirdlərini peşə proqramlarına daxil olmaqdan daha da çəkindirir. Bundan əlavə, coğrafi təcrid və Kvemo Kartlidə keyfiyyətli peşə təhsili mərkəzlərinə məhdud çıxış, problemi daha da gücləndirir. Bölgədəki bir çox yuxarı sinif şagirdlərinin yüksək keyfiyyətli peşə təhsili üçün mühüm əhəmiyyət kəsb edən yaxşı təchiz olunmuş təlim bazalarına və ixtisaslı müəllimlərə çıxışı yoxdur (Bardak, 2020). Güclü sənaye əlaqələrinin və mentorluq proqramlarının olmaması tələbələrin praktiki təcrübəsini daha da məhdudlaşdıraraq, peşə hazırlığını daha az cəlbedici edir.

Gürcüstan hökuməti peşə təhsilinin yenidən qurulması üçün bir sıra strategiyalar tətbiq edib. Gürcüstanın Təhsil və Elm üzrə Vahid Milli Strategiyasında (2021) peşə hazırlığının daha geniş təhsil sisteminə inteqrasiyası və onun daha əlçatan olması planları əks olunub. Eynilə, Peşə Təhsili Strategiyası (2013-2020) proqramın keyfiyyətinin yaxşılaşdırılmasına və sənayenin maraqlı tərəfləri ilə tərəfdaşlığın təşviqinə yönəlmişdir (Gürcüstanın Təhsil və Elm Nazirliyi, 2013). Qeyri-formal təhsilin tanınması ənənəvi şəraitdən kənarda əldə edilmiş bacarıqların təsdiqində irəliyə doğru bir addım olmuşdur. Təhsilin Keyfiyyətinin Artırılması üzrə Milli Mərkəz (2020) qeyri-formal öyrənmənin sertifikatlaşdırılması təşəbbüslərini vurğulayır ki, bu da daha çox şagirdi peşə təhsilinə cəlb edə bilər.Peşə təhsilinin təkmilləşdirilməsinin vacibliyini dərk edən Gürcüstan hökuməti sistemin modernləşdirilməsinə

yönəlmiş bir sıra islahatlar həyata keçirmişdir.Gürcüstanın Təhsil və Elm Nazirliyinin məlumatına görə (2023-cü il), Peşə Təhsili üzrə 2022-2024-cü illər üçün Fəaliyyət Planında əsas diqqət kurikulumların gücləndirilməsi, tədris standartlarının təkmilləşdirilməsi və özəl sektorla əməkdaşlığın artırılmasına yönəlib.Bununla belə, bu islahatların həyata keçirilməsi ləng getmiş və Kvemo Kartli kimi bölgələrə təsiri minimal olmuşdur. Avropa Təlim Fondunun (ETF) hesabatı göstərir ki, milli səviyyədə bəzi islahatlar aparılsa da, peşə təhsili ölkə daxilində parçalanmış və qeyri-bərabər paylanmışdır. Xüsusilə, Kvemo Kartli kimi regionlar çox vaxt diqqətdən kənarda qalır və peşə təhsili müəssisələrinə daha az vəsait ayrılır. İnfrastruktur və obyektlərə sərmayə qoyuluşunun olmaması təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb olur və bu, yuxarı sinif şagirdlərini karyera yolu kimi peşə təhsilini seçməkdən daha da çəkindirir. Peşə təhsilinə marağın olmamasına təsir edən digər kritik amil akademik və texniki təhsilin dəyəri ilə bağlı mədəni təsəvvürlərdir. Rigolini və digərlərinin iddia etdiyi kimi (2022), peşə təhsilini əmək bazarının tələbi ilə uyğunlaşdırmaq və peşə proqramlarının maddi karyera imkanları təklif etməsini təmin etmək şagirdlərin bu proqramlara marağını artıra bilər.

**Nəzəri çərçivə**

Kvemo Kartli bölgəsində peşə təhsilinə olan marağın və iştirak səviyyəsinin aşağı olması, bu sahə ilə bağlı ictimai məlumatın məhdudluğu və stereotiplərin geniş yayılması bir neçə nəzəri yanaşma ilə izah oluna bilər. Layihə əsaslı bu tədqiqatda istifadə olunan nəzəri çərçivə bu meyillərin arxasında duran struktural, sosial və informasiya amillərini dəyərləndirmək üçün imkan yaradır.

**1. İnsan Kapitalı Nəzəriyyəsi kontekstində tələbatın azlığı**

İnsan Kapitalı Nəzəriyyəsi fərdlərin təhsilə, o cümlədən peşə təhsilinə gələcək qazanc və məhsuldarlıq baxımından sərmayə kimi yanaşdığını vurğulayır. Kvemo Kartlidə bu baxış zəifdir, çünki peşə təhsili ilə bağlı real əmək bazarı nəticələri və gəlir imkanları barədə məlumatlar ictimaiyyətə çatmır, bu da təhsil növünün dəyərsiz olduğu fikrini formalaşdırır.

Şagirdlər və valideynlər arasında bu təhsil formasının karyera yüksəlişi üçün qeyri-effektiv vasitə olduğu düşüncəsi geniş yayılıb.

Tələbatın az olmasının səbəblərindən biri, peşə təhsilinin potensial faydaları haqqında informasiya boşluğu və zəif təbliğatdır. İnsan kapitalına investisiya perspektivi aydın görünmədikdə, seçimlər də azalır.

**2. Sosial Öyrənmə Nəzəriyyəsi və ictimai təsəvvürlər**

Banduranın Sosial Öyrənmə Nəzəriyyəsinə əsasən, fərdlər davranış və seçimləri sosial mühitdən ailə, müəllim, icma nümunələrindən öyrənirlər. Kvemo Kartli regionunda peşə təhsili haqqında mənfi ictimai qavrayışlar və stereotiplər geniş yayılıb. Gənclər "zəif şagirdlərin yolu" kimi görülən bir sahəyə yönəlməkdən çəkinirlər. Ailə və məktəb mühitində ali təhsil prioritetləşdirilir, peşə təhsili isə son seçim kimi qəbul olunur.

Məlumatın olmaması ilə yanaşı, cəmiyyətdə formalaşmış yanlış təsəvvürlər və sosial gözləntilər də peşə təhsilinə marağın azalmasına səbəb olur.

**3. Təhsilin Uyğunlaşdırılması Nəzəriyyəsi və əmək bazarı əlaqəsi**

Təhsilin uyğunlaşdırılması nəzəriyyələri göstərir ki, təhsil proqramları əmək bazarının real tələbləri ilə uyğun olmadıqda, bu təhsilə olan inam və tələb azalır. Kvemo Kartlidə peşə təhsili müəssisələri yerli sənayelərlə zəif əməkdaşlıq edir. Təlim proqramlarının aktuallığı barədə ictimaiyyət kifayət qədər məlumatlandırılmayıb. İşəgötürənlərin və məktəblərin əməkdaşlığı olmadan, şagirdlər təhsilin nəticələrinin praktikliyinə inanmırlar.

**4. Qabiliyyət Yanaşması və şəxsi-sosial inkişaf**

Amartya Sen-in Qabiliyyət Yanaşması fərdlərin yalnız iqtisadi deyil, sosial və şəxsi inkişaf imkanlarını da nəzərə alaraq seçim etdiyini vurğulayır. Kvemo Kartlidə peşə təhsili sosial statusun artırılması və ya şəxsi inkişaf vasitəsi kimi təbliğ olunmur. Bu təhsil növünün cəmiyyətə tam və fəal iştirak üçün açdığı imkanlar barədə məlumat azdır. Ailə və icma üzvləri peşə təhsilinin sosial faydaları haqqında məlumatlı deyillər.

Əgər insanlar bu təhsil formasının həyat keyfiyyətini artırmaqda, cəmiyyətə inteqrasiyada və fərdi azadlıqlarda necə rol oynadığını anlamırlarsa, onu seçmək ehtimalları azalır.

# III FƏSİL

# METODOLOGİYA

## Layihənin dizaynı

Kvemo Kartli bölgəsində peşə təhsilinə marağın az olmasının səbəblərini və bu problemin həlli yollarını araşdırmaq üçün keyfiyyət metodu çərçivəsində fenomenoloji yanaşmadan istifadə edilib. Keyfiyyət yanaşmasında başlıca məqsəd fərdlərin və təşkilatların davranış və fəaliyyətinin motivlərini, habelə onların baxış və müxtəlif məsələlər barəsindəki fikirlərini müfəssəl şəkildə, təfsilata vararaq öyrənməkdir (Şahbazov, 2016). Creswell (s. 42) də qeyd edir ki, fenomenoloji yanaşma iştirakçılardan birbaşa məlumat toplayaraq onların düşüncə və perspektivlərini dərinliklə anlamağa imkan verir. Bu yanaşma, şagirdlərin peşə təhsilinə olan münasibətini daha dərindən araşdırmağa və məlumatsızlıq, stereotiplər kimi problemlərin əsas səbəblərini üzə çıxarmağa kömək edir.

Bu layihə əsaslı tədqiqatda, şagirdlərlə aparılan müsahibələr vasitəsilə peşə təhsilinə marağın az olması ilə bağlı məlumatlar toplanılıb. Nəticədə, bu sahənin cəlbediciliyini artırmaq üçün uyğun həll yolları təklif edilir.

Fenomenoloji yanaşma zamanı etik məsələlərə xüsusi diqqət yetirilib. İştirakçıların şəxsi məlumatları kodlaşdırılaraq məxfilik təmin edilib. Creswell-in vurğuladığı kimi, bu yanaşma tədqiqatçıya iştirakçılarla daha yaxın təmas qurmağa və onların düşüncələrini doğru şəkildə əks etdirməyə imkan verir.

**Tədqiqat sahəsi**

Layihə 2024-2025-ci tədris ilini əhatə edir. Layihə əsaslı tədqiqat Gürcüstanın Kvemo Kartli bölgəsində yerləşən üç ictimai məktəbdə həyata keçirilib. Kvemo Kartli bölgəsi, etnik və mədəni müxtəlifliyi, həmçinin sosial-iqtisadi göstəriciləri ilə layihənin məqsədlərinə uyğun gələn unikal xüsusiyyətlərə malikdir. Bu layihə əsaslı tədqiqat, vaxt məhdudiyyəti səbəbindən yalnız üç məktəbdə məlumat toplamaq və təhlil edilməklə aparılıb.

**Nümunə ölçüsü və seçmə strategiyası**

Layihə əsaslı tədqiqatın iştirakçıları Kvemo Kartli bölgəsinin üç ictimai məktəbində oxuyan 10, 11, 12 - ci sinif şagirdlərindən ibarət idi. Şagirdlərin sayı 15 nəfəri əhatə edib. Seçmə olaraq isə sadə təsadüfi seçmə üsulu tətbiq edilib. Sadə təsadüfi seçmə təsadüfi seçmənin növü olub, əhalinin vahidlərinə nömrə təyin olunur. Daha sonra təsadüfi rəqəmlərin siyahısı çıxırılır və həmin rəqəmlərin aid olduğu vahidlər seçməyə daxil edilir (Babbi, 2022). Seçim prosesi, iştirakçıların müxtəlif cins, yaş və sosial-iqtisadi vəziyyətlərini nəzərə alaraq balanslaşdırılıb, bununla da müxtəlif perspektivləri əks etdirən bir nümunə əldə edilib.

**Məlumat toplama prosesi**

Məlumatlar müsahibələr arasında ardıcıllığı qoruyarkən iştirakçıların fikirlərini dərindən araşdırmaq üçün çeviklik təmin edən yarıstrukturlaşdırılmış müsahibələr vasitəsilə toplanıb. Şagirdlərlə müsahibə aparmaqla, bu layihə əsaslı tədqiqatın məqsədi peşə təhsilinə marağın az olması və ya məlumatsızlıqdan qaynaqlanan maneələr haqqında daha zəngin kontekstual anlayış təmin etməkdir (Kapanadze, 2020). Müsahibələrə peşə təhsili haqqında məlumatlılıq və təhsil seçimlərinə təsirlər kimi mövzular üzrə müzakirələri asanlaşdırmaq üçün nəzərdə tutulmuş açıq tipli suallar daxil edilib. Müsahibələr iştirakçıların mövcudluğundan asılı

olaraq, üzbəüz aparılıb. Müsahibə protokolu əsas tədqiqat suallarını həll etmək üçün tərtib edilərək aşağıdakı kimi mövzuları əhatə edib:

Peşə təhsili haqqında təsəvvürlər;

Peşə təhsilinin ali təhsillə müqayisədə qəbul edilən nüfuzu;

Peşə təhsili seçimində olan maneələr;

Peşə təhsilinə marağı artırmaq üçün mümkün həllər.

Hər bir müsahibə təxminən 20 - 25 dəqiqə davam edib və iştirakçılara öz təcrübələrini və fikirlərini izah etmək üçün kifayət qədər vaxt verilib. Bütün müsahibələr audioyazıya alınıb (iştirakçıların razılığı ilə) və təhlil üçün transkripsiya edilib. İştirakçıların şəxsiyyətlərini qorumaq üçün transkripsiyalar anonimləşdirilib.

**Məlumatların təhlili**

Tədqiqat çərçivəsində iştirakçılarla aparılan müsahibələrin transkriptləşdirilməsi prosesi 2025-ci ilin aprel ayının ortalarında həyata keçirilmişdir. Bu mərhələdən sonra isə toplanmış keyfiyyət xarakterli məlumatların sistemli və məqsədyönlü şəkildə təhlili aparılmışdır. Layihə əsaslı tədqiqatda məlumatların təhlili üçün tematik təhlil (thematic analysis) yanaşması seçilmişdir. Bu metodun seçilməsi təsadüfi deyil; çünki tematik təhlil müxtəlif respondentlərin verdiyi cavabları strukturlaşdıraraq ümumi ideya və düşüncə nümunələrini üzə çıxarmağa imkan verir. Braun və Clarke-in (2006) təqdim etdiyi yanaşmaya əsasən, bu metod toplanmış məlumatlarda təkrarlanan fikirləri, emosional reaksiyaları və anlayışları sistemləşdirmək üçün effektiv alətdir.

Tematik təhlilin tətbiqi zamanı Creswell-in (2009) təqdim etdiyi altı mərhələdən ibarət prosedur izlənilmişdir. Tədqiqatın əsas müəllifi tərəfindən aparılan bu proses aşağıdakı kimi mərhələləndirilmişdir:

1. Transkripsiya və ilkin tanışlıq: İlk mərhələdə müsahibələr səs yazılarından yazılı formata köçürülmüş və transkriptlər dəfələrlə oxunaraq ilkin məlumatlarla dərindən tanışlıq təmin edilmişdir.

2. Kodlaşdırma: Növbəti mərhələdə, tədqiqatın əsas sual və məqsədlərinə uyğun olaraq cavablardan açar ifadələr və fikirlər çıxarılaraq kodlaşdırılmışdır. Bu kodlar iştirakçıların ifadələrində təkrarlanan məzmunu əhatə etmişdir.

3. Temaların formalaşdırılması: Kodlaşdırılmış məlumatlar induktiv (nəqli) yanaşma vasitəsilə oxşar mənalı vahidlər kimi qruplaşdırılaraq ilkin temalar yaradılmışdır.

4. Temaların nəzərdən keçirilməsi: İlkin temalar üzərində ətraflı müzakirələr aparılmış və onların uyğunluğu və ardıcıllığı qiymətləndirilmişdir. Bu mərhələ tədqiqatın bütün müəllifləri arasında birgə fikir mübadiləsi yolu ilə aparılmış və temalar təkmilləşdirilmişdir.

5. Temaların adlandırılması və təfsiri: Məlumatların dərin təhlili nəticəsində formalaşan əsas və alt-temaların adlandırılması həyata keçirilmiş, onların hər birinin mahiyyəti və məzmunu izah olunmuşdur.

6. Tapıntıların yazıya çevrilməsi və illüstrasiya: Son mərhələdə hər bir tema və alt-tema müsahibə transkriptlərindən seçilmiş konkret iştirakçı sitatları ilə dəstəklənmiş və tematik təhlil nəticələri əsasında tədqiqatın nəticə hissəsi hazırlanmışdır (Creswell, 2009).

Bu mərhələli yanaşma vasitəsilə təhlil prosesi 2025-ci ilin aprel ayının sonlarında uğurla başa çatdırılmışdır. Məlumatların təhlili zamanı fərqli iştirakçılardan əldə olunan ifadələrdəki

ümumi cəhətlər müəyyən edilərək ortaq mənalar altında kodlaşdırılmış, ardınca isə bu kodlar alt-kateqoriyalar və əsas kateqoriyalar ətrafında sistemləşdirilmişdir.

Nəticə etibarilə, tədqiqatın məqsədlərinə uyğun olaraq aparılan tematik təhlil nəticəsində iki əsas analitik kateqoriya formalaşdırılmışdır ki, bunlar da layihə əsaslı araşdırmanın mərkəzi ideyalarını və iştirakçıların yanaşmalarını əhatə edir.

**Validlik və Etibarlılıq**

Validlik və etibarlılıq anlayışları keyfiyyət tədqiqatlarında, xüsusən də tapıntıların etibarlı olması zamanı çox vacibdir (Denzin & Lincoln, 2008). Bu anlayışlar Gürcüstanda peşə təhsili ilə bağlı bu layihədə müsahibələrin aparılmasında həm validliyi, həm də etibarlılığı artırmaq üçün istifadə olunan strategiyaları təsvir edir.

Məlumatların toplanmasında validliyə nail olmaq üçün tədqiqat yarıstrukturlaşdırılmış müsahibə formatından istifadə edir. Bu yanaşma hər bir iştirakçıya ardıcıl sualların verilməsinə, eyni zamanda fərdi cavabları dərindən araşdırmaq üçün çevikliyə imkan verir. Dearnley (2005) görə, yarıstrukturlaşdırılmış müsahibələr, müsahibələr arasında ardıcıllıq səviyyəsini qoruyarkən zəngin məlumatlara səbəb ola bilər. Müsahibə protokolu mövcud ədəbiyyat əsasında hazırlanıb və layihə əsaslı tədqiqat suallarına uyğunlaşdırılıb və bütün müvafiq mövzuların hər bir müsahib üçün ardıcıl şəkildə həll olunmasını təmin edəcək (Brinkmann, 2013).

Daha sonra isə yarıstrukturlaşdırılmış müsahibə suallarının effektivliyini təmin etmək üçün sahə üzrə təcrübəli mütəxəssisə müraciət edilib. Mütəxəssis sualların məqsədəuyğunluğunu və mötəbərliliyini qiymətləndirərək, onların tədqiqat məqsədlərinə uyğun olub-olmadığını müəyyən edib. Müsbət rəy alındıqdan sonra suallar müsahibələrdə istifadə edilib. Bu yanaşma, sualların aydınlığını və uyğunluğunu artırmağa kömək edir.

Bundan əlavə, müsahibələri keçirməzdən əvvəl layihə əsaslı tədqiqat qrupu kiçik bir qrup şagird ilə müsahibə protokolunu sınaqdan keçirib. Müsahibə protokollarının sınaqdan keçirilməsi, məlumatların düzgün olub-olmadığını və problemləri daha asan aşkar etməyə kömək edir. (Yin, 2018). Pilot müsahibələr nəzərdən keçirilərək və məlumatların toplanması prosesinin bütün müsahibələrdə valid olmasını təmin etmək üçün müsahibə təlimatına lazımi düzəlişlər edilib.

Keyfiyyətli məlumatların təhlilində etibarlılığın təmin edilməsi üçün kodlaşdırma üsullarının sistematik tətbiqi nəzərdə tutulur. Braun və Clarke (2006) tərəfindən dəstəklənən məlumatları şərh etmək üçün tematik təhlildən istifadə edilib. Layihə əsaslı tədqiqat qrupunun hər bir üzvü müstəqil olaraq müsahibə transkriptlərinin bir hissəsini kodlaşdırıb, ardınca ortaya çıxan mövzular üzrə ümumi razılığa nail olmaq üçün qrup müzakirələri aparıb. Bu birgə yanaşma çoxsaylı perspektivlərin nəzərə alınmasını təmin etməklə tapıntıların etibarlılığını gücləndirir (McCormack və digərləri, 2008).

Bundan əlavə, tədqiqat prosesi boyunca təfərrüatlı audit izinin saxlanması etibarlılığın yaradılması üçün çox vacibdir. Linkoln və Quba (1985) görə, audit izi kənar rəyçilərə məlumatların toplanması və təhlili ilə bağlı qərarlar da daxil olmaqla tədqiqat prosesini qiymətləndirməyə imkan verir.

**Layihənin etik mülahizələri**

Etik tədqiqatların aparılması üçün məlumatlı razılığın alınması vacibdir (Diener & Crandall, 1978). İştirakçılara tədqiqatın məqsədi, prosedurları, potensial risklər və istənilən vaxt geri çəkilmək hüququ haqqında ətraflı məlumat verilib. Razılıq formalarında onların məlumatlarının necə istifadə ediləcəyi və onların şəxsiyyətləri və cavabları ilə bağlı məxfilik təmin edilib. Səs yazıları və transkriptlər iştirakçının məxfiliyini qorumaq üçün təhlildən əvvəl bütün şəxsi identifikatorlar silinməklə və ya anonimləşdirilməklə təhlükəsiz şəkildə saxlanılıb.

Məxfiliyi qorumaq üçün hər hansı potensial identifikasiyaedici məlumat tədqiqat nəticələrindən çıxarılır (Kaiser, 2009). Tədqiqatçılar iştirakçıların öz təcrübələrini rahatlıqla bölüşdükləri təhlükəsiz məkan yaratmağa borcludurlar ki, bu da məxfiliyə açıq şəkildə zəmanət verməklə gücləndirilə bilər (Wiles və digərləri, 2006).

Məlumatların toplanması başa çatdıqdan sonra iştirakçılara tədqiqatın nəticələri haqqında məlumat ala biləcəkləri, məlumatlandırma sessiyası təqdim olunub. Bu təcrübə şəffaflığın etik prinsipinə uyğun gəlir və iştirakçıların öz töhfələrini əhatə edən tədqiqatda payı olması fikrini dəstəkləyir (McLaughlin, 2007).

Bu layihə əsaslı tədqiqatda etik mülahizələr məlumatlı razılığa, məxfiliyə, mədəni həssaslığa və məlumat təhlükəsizliyinə xüsusi diqqət yetirilməklə, tədqiqat etikasında müəyyən edilmiş standartlara əsaslanıb.

# IV FƏSİL

## Pilot Tətbiqetmə

Bu layihə əsaslı tədqiqat çərçivəsində istifadə olunan ölçmə aləti yarıstrukturlaşdırılmış müsahibə sualları əsas tətbiq mərhələsindən əvvəl pilot şəkildə test edilib. Müsahibə sualları tədqiqatçılar tərəfindən mövcud nəzəriyyələr və elmi ədəbiyyata əsaslanaraq hazırlanıb.

Pilot mərhələ çərçivəsində dörd nəfər iştirakçı ilə ilkin sınaq müsahibələri həyata keçirilib. Bu mərhələ zamanı müsahibə suallarının anlaşıqlılığı, məntiqi axını, məqsədəuyğunluğu və praktik istifadəyə uyğunluğu qiymətləndirilib. Pilot mərhələnin nəticələrinə əsaslanaraq bəzi suallarda kiçik redaktələr aparılmış və yekun müsahibə forması formalaşdırılıb.

Datanın toplanması prosesi həm pilot, həm də əsas tətbiq mərhələsi 2024 - 2025-ci tədris ilinin ikinci yarımilində həyata keçirilib.

Müsahibə sualları məzmun, dil və üslub baxımından mütəxəssislər tərəfindən qiymətləndirilib və uyğunluq baxımından rəy alınıb.

## TAPINTILAR

Bu layihə əsaslı tədqiqatın əsas məqsədi Kvemo Kartli bölgəsinə xüsusi diqqət yetirməklə, Gürcüstanda peşə təhsilinə marağın az olmasına səbəb olan amilləri təhlil etməkdir. Bu layihə əsaslı tədqiqat peşə təhsili proqramlarının qavranılmasına və effektivliyinə təsir edən amilləri müəyyən etmək və onların cəlbediciliyini artırmaq, əmək bazarının tələblərinə uyğunlaşmaq üçün müəyyən tövsiyələr vermək məqsədi daşıyır. Əhali arasında məlumatlılığı artırmaqla bu layihə əsaslı tədqiqat Gürcüstanın sosial-iqtisadi inkişafında peşə təhsilinin mühüm rolunu vurğulamağa çalışır.

**Layihənin tədqiqat sualı**

- Gürcüstanın Kvemo Kartli bölgəsində yuxarı sinif şagirdlərinin peşə təhsilinin əhəmiyyəti barədə fikirləri necədir və bu fikirləri formalaşdıran amillər hansılardır?

Layihə əsaslı tədqiqat 2024–2025-ci tədris ilində Gürcüstanın Kvemo Kartli bölgəsində aparılmışdır. Tədqiqat çərçivəsində bölgədə yerləşən 3 ictimai məktəbin 10, 11 və 12-ci siniflərində təhsil alan şagirdlər iştirak etmişdir. Ümumilikdə, tədqiqatda 15 nəfər yuxarı sinif şagirdi iştirak etmiş və onların demoqrafik göstəriciləri Cədvəl 1-də ətraflı şəkildə təqdim olunmuşdur.

**Cədvəl 1. İştirakçıların demoqrafik məlumatları**

| Kod | Məktəb | Sinif | Cins |
|---|---|---|---|
| R1 | Marneuli 7 saylı ictimai məktəb | 11-ci | Oğlan |
| R2 | Marneuli 8 saylı ictimai məktəb | 11-ci | Oğlan |
| R3 | Marneuli 8 saylı ictimai məktəb | 10-cu | Qız |
| R4 | Marneuli 7 saylı ictimai məktəb | 12-ci | Qız |
| R5 | Marneuli 8 saylı ictimai məktəb | 12-ci | Oğlan |
| R6 | Marneuli 8 saylı ictimai məktəb | 12-ci | Qız |
| R7 | Marneuli 8 saylı ictimai məktəb | 10-cu | Oğlan |
| R8 | Marneuli 8 saylı ictimai məktəb | 11-ci | Oğlan |
| R9 | Marneuli 7 saylı ictimai məktəb | 11-ci | Oğlan |
| R10 | Marneuli 7 saylı ictimai məktəb | 10-cu | Qız |
| R11 | Marneuli 7 saylı məktəb | 11-ci | Qız |
| R12 | Marneuli 8 saylı məktəb | 10-cu | Qız |
| R13 | Marneuli 6 saylı məktəb | 12-ci | Oğlan |
| R14 | Marneuli 6 saylı məktəb | 12-ci | Qız |
| R15 | Marneuli 6 saylı orta məktəb | 12-ci | Oğlan |

Cədvəl 1-in təhlili göstərir ki, tədqiqatda iştirak edən bütün şagirdlər Kvemo Kartli bölgəsinin Marneuli rayonunda yerləşən dövlət ümumtəhsil məktəblərində oxuyurlar. Respondentlər əsasən 10-cu, 11-ci və 12-ci siniflərdə təhsil alan yuxarı sinif şagirdləridir. Onların siniflər üzrə bölgüsü isə belədir: 10-cu sinifdə 4 nəfər, 11-ci sinifdə 6 nəfər və 12-ci sinifdə 5 nəfər təhsil

alır. Bu bölgü onu deməyə əsas verir ki, sorğuda iştirak edən şagirdlər hazırda gələcəkdə izləyəcəkləri təhsil və peşə yollarını müəyyənləşdirmə mərhələsindədirlər.

Tədqiqatda iştirakçılardan toplanan məlumatlar tematik təhlil üsulundan istifadə edilərək analiz edilib və 3 tema müəyyən edilmişdir:

1: Şagirdlərin peşə təhsili haqqında məlumatı və təsəvvürləri

2: Peşə təhsilinə münasibəti formalaşdıran amillər

3: Peşə təhsilinə marağı artırmaq üçün ehtiyaclar və təkliflər

Birinci tema çərçivəsində şagirdlərin peşə təhsili barədə məlumatlılıq səviyyəsi və bu sahəyə dair ümumi təsəvvürləri araşdırılıb. İkinci tema isə onların peşə təhsilinə münasibətinə təsir edən amilləri və bu sahəni seçməmələrinin əsas səbəblərini əhatə edir. Üçüncü temada isə şagirdlərin fikrincə peşə təhsilinin daha cəlbedici və əlçatan olması üçün hansı addımların atılmalı olduğu məsələlərinə toxunulub. Bu tematik bölünmə şagirdlərin peşə təhsilinə dair bilik, münasibət və ehtiyaclarını mərhələli şəkildə dəyərləndirməyə imkan verir.

**Tema 1: Şagirdlərin peşə təhsili haqqında məlumatı və təsəvvürləri**

Layihə əsaslı tədqiqatda Kvemo Kartli regionunda yaşayan yuxarı sinif şagirdlərinin peşə təhsili haqqında məlumatı və təsəvvürlərini təsvir edən əsas tema, subtemalar və tezliklər Cədvəl 2 -də təqdim olunur.

**Cədvəl 2. Şagirdlərin peşə təhsili haqqında məlumatı və təsəvvürləri**

| **Tema** | **Sub- tema** | **Tezliklər** | **Respondentlər** |
|---|---|---|---|
| | Peşə təhsili anlayışı | 4 | R1,R5,R9,R11 |

| | | | |
|---|---|---|---|
| Şagirdlərin peşə təhsili haqqında məlumatı və təsəvvürləri | Tanıdıqları peşə təhsili müəssisələri | 9 | R1,R2,R6,R7,R8, R9,R10,R13,R15, |
| | Bildikləri ixtisas və proqramlar | 7 | R5,R7,R8,R9,R11, R12,R13 |
| | Ali təhsillə müqayisədə baxışları | 4 | R2,R3,R12,R13. |

**1.1 Subtema : Peşə təhsili anlayışı**

Bu hissədə şagirdlərin peşə təhsili dedikdə nə başa düşdükləri və bu təhsil formasını necə təsəvvür etdikləri araşdırılır.

*"Peşə təhsili o yerdir ki, orda uşaqlar seçdikləri peşəni öyrənirlər. Məsələn, kim aşpaz ya da bərbər olmaq istəyirsə, onu öyrənə bilir." (R1).*

*"Deyirlər ki, ali məktəbə gedə bilməyən uşaqlar üçün peşə məktəbləri yaxşı seçimdir. Məncə, orada da bir sənət öyrənmək olar."(R5).*

*"Peşə məktəbində qısa vaxtda işə lazım olan şeyləri öyrədirlər. Yəni orada oxuyanlar tez işləyə bilir."(R9).*

*"Mən çox bilmirəm bu haqda, amma deyirlər ki, kompyuter, dərzi ya da elektrik işi kimi peşələri orada öyrədirlər."(R11).*

Bu Layihə əsaslı tədqiqatın tapıntıları göstərir ki, şagirdlər peşə təhsilini əsasən hansısa sənət öyrənmək yeri kimi bilirlər. Amma bu məlumatlar çox vaxt yarımçıqdır və daha çox eşitdiklərinə əsaslanır. Deməli, bu mövzuda onlara daha dolğun və aydın məlumat verilməlidir.

**1.2 Subtema : Tanıdıqları peşə təhsili müəssisələri**

Bu tədqiqat göstərir ki, Kvemo Kartli bölgəsində yuxarı sinif şagirdlərinin peşə təhsili müəssisələri haqqında məlumatı çox məhduddur və bu məlumatlar əsasən qeyri-rəsmi mənbələrdən əldə olunmuş səthi bilgilərlə məhdudlaşır.

*“Dostlarım deyir ki, Marneuli kollecində proqramistlik və aşpazlıq kimi sahələr var. Amma mənim özümün bu barədə çox az məlumatım var, ona görə də ətraflı danışa bilmirəm.”(R2).*

*“Marneuli İctimai Kollecini tanıyıram. Burada yaşadığım üçün adını çox eşidirəm. Deyirlər, orada müxtəlif peşələr öyrədilir, amma hansı peşələrdir, bilmirəm.”(R1)*

*“Modus kollecinin adını eşitmişəm. Kompyuter və tibb sahəsində dərslər olurmuş. Amma özüm ora getməmişəm deyə ətraflı bilmirəm.”(R6)*

Şagirdlər peşə təhsili müəssisələri ilə əsasən coğrafi yaxınlıq və eşitdikləri məlumatlar sayəsində tanış olurlar. Lakin bu tanışlıq əsaslı deyil, səthidir və şəxsi təcrübəyə əsaslanmır. Bu da göstərir ki, məlumatlandırma daha çox formal və sistemli şəkildə aparılmalıdır.

*“Rustavidə və Tbilisidə belə məktəblər var deyirlər. Amma nə adlarını, nə də dərsləri bilmirəm. Sadəcə orada oxuyanlar tez iş tapır, belə eşitmişəm.”(R8)*

*“Dostlar deyir ki, Marneuli kolleci aşpazlıq və proqramlaşdırma tədris edir. Amma mən özüm bu barədə əmin deyiləm, çox məlumatım yoxdur.”(7)*

*“Valideynlərim deyir ki, peşə məktəblərində dərzilik, elektrikçilik kimi sahələr öyrədilir. Amma özüm heç maraqlanıb baxmamışam.”( R10)*

*“Bəzi uşaqlar deyir ki, ora zəif oxuyanlar gedir. Amma məncə, yaxşı müəllim və şərait olsa, hər yerdə təhsil almaq mümkündür.”(R9)*

Burada həm ailə təsiri, həm də ictimai stereotiplər özünü göstərir. Bəzi şagirdlər mənfi yanaşmaları qəbul etsələr də, fərdi düşüncə ilə bu stereotiplərə qarşı çıxırlar. Bu, potensial pozitiv dəyişimin mümkünlüyünə işarədir.

*"Bizim məktəbdə müəllimlər Marneuli kollecindən danışırlar. Deyirlər, uşaqlar orda həm nəzəri, həm də praktiki dərs alırlar."(R13)*

*"Adlarını çox eşitmişəm, amma heç birinə baş çəkib baxmamışam. Dəqiq bilmirəm orda nə var."(R15)*

Məlumatlılıq səviyyəsi zəifdir və əsasən dolayı yolla əldə olunur. Praktiki təmasın olmaması, yəni şagirdlərin məktəblərə fiziki olaraq yaxınlaşmaması, seçim imkanlarını dumanlı və qeyri-cəlbedici edir.

Kvemo Kartli bölgəsindəki şagirdlərin peşə təhsili müəssisələri barədə məlumatları əsasən eşitdiklərinə, valideyn və dost fikirlərinə əsaslanır. Bu isə onların peşə təhsili ilə bağlı dərin anlayışa malik olmadığını, qərar vermə prosesində isə sabit informasiya bazasının olmadığını göstərir.

**1.3 Subtema : Bildikləri ixtisas və proqramlar**

Tədqiqat göstərdi ki, şagirdlərin peşə təhsili üzrə ixtisas və proqramlar haqqında məlumatı səthi və məhduddur. Bu bilgilər əsasən eşitdiklərinə əsaslanır və real təcrübəyə söykənmir, bu da qərarvermə prosesini çətinləşdirir.

*"Peşə proqramları haqqında çox məlumatım yoxdur, amma eşitmişəm ki, tibb bacısı və müəllimlik kimi sahələr var."(R5).*

*"Sadəcə İnformasiya Texnologiyaları (İT) üzrə proqram haqqında eşitmişəm. Deyirlər, kompüterlə bağlı dərslər keçirirlər."(R7).*

*"Bildiyim qədər tibb bacısı və proqramistlik ixtisasları var. Amma başqa hansı sahələr var, onu bilmirəm."(R8).*

*"Aşpazlıq, dərzilik, kompüter texniki kimi sahələr eşitmişəm. Deyirlər ki, bu peşələr orada öyrədilir."(R9).*

Eşidilən ixtisaslar daha çox cəmiyyət arasında məşhur və praktik yönümlü sahələrdir. Bu isə onu göstərir ki, şagirdlər peşə təhsilini daha çox gündəlik iş həyatına yaxın ixtisaslarla əlaqələndirirlər. Lakin bu məlumatlar da yenə qeyri-rəsmi və qeyri-müəyyən xarakter daşıyır.

*"Texnologiya və bank işi sahəsində proqramlar haqqında eşitmişəm. Amma necə keçirilir, onu bilmirəm."(11).*

*"Kompyuter, dərzi, aşpazlıq, elektrik işi kimi proqramlar olduğunu eşitmişəm. Amma nə qədər çəkir, necə tədris olunur – bu barədə məlumatım yoxdur."(R12).*

Şagirdlərin məlumatlılığı daha çox "nə var?" sualına cavab verir, amma "necə işləyir?" və "mənə nə qazandıracaq?" suallarına cavab yoxdur. Bu isə onların qərarvermə prosesinə real dəstək vermir. Deməli, yalnız proqram adlarını bilmək kifayət deyil, onların məzmunu, imkanları və tətbiqi sahələri barədə də dolğun məlumat verilməlidir.

*"Mən eşitmişəm ki, dərzilik və aşpazlıq üçün kurslar var. Amma özüm hələ maraqlanıb öyrənməmişəm."(R13).*

*"Tibb bacısı və İT proqramlarını eşitmişəm. Amma nə qədər davam edir və dərslər necə keçirilir, onu bilmirəm."(8).*

Bu cavablar göstərir ki, informasiyanın ötürülməsi mövcuddur, amma onun keyfiyyəti və sistemliliyi aşağıdır. Şagirdlərin proqramlar haqqında bilgiləri, qərarvermə və gələcək planlama baxımından yetərli deyil.

### 1.4 Sub-tema : Ali təhsillə müqayisədə baxışları

Bu bölmədə şagirdlərin peşə təhsili ilə ali təhsili necə dəyərləndirdikləri və bu iki təhsil növü arasında hansı fərqləri gördükləri araşdırılır. Müsahibə iştirakçılarının əksəriyyəti ali təhsili daha üstün, prestijli və gələcəkdə daha yaxşı karyera imkanı verən yol kimi görürlər. Buna baxmayaraq, bəzi şagirdlər peşə təhsilinin də praktik bacarıqlar qazandırmaq baxımından önəmini qeyd edirlər.

*"Peşə təhsili qısa vaxtda konkret bir sənət öyrədir. Amma ali təhsil daha dərin və geniş olur, gələcəkdə daha yaxşı yerlərdə işləmək üçün vacibdir."(R2)*

Bu fikirdə şagird iki təhsil növünü sadə şəkildə fərqləndirir. O, peşə təhsilini tez işə başlamaq üçün, ali təhsili isə yüksək ixtisaslı olmaq üçün daha uyğun hesab edir.

*"Ali təhsil prestijlidir. Universitet oxuyanlar cəmiyyətdə hörmət qazanır. Peşə məktəbinə isə adətən zəif oxuyanlar gedir."(R3)*

Şagird burada açıq şəkildə cəmiyyətin baxışını əks etdirir. Sosial status və imic məsələsi onun düşüncəsində mühüm rol oynayır.

*"Məncə, hər ikisinin öz yeri var. Ali təhsil nəzəri bilik verir, peşə təhsili isə praktiki bacarıq. Hansısa peşəni tez öyrənmək istəyənlər üçün kollec daha yaxşıdır."(R12)*

Bu cavab daha balanslı və realist yanaşmanı nümayiş etdirir. Şagird hər iki təhsil formasının funksiyasını başa düşür və onların məqsədlərinin fərqli olduğunu qəbul edir.

*"Ali məktəb oxuyanda daha çox bilik alırsan, amma vaxt da çox gedir. Peşə məktəbi isə qısadır, işləmək istəyənlər üçün daha münasibdir."(13)*

Şagird burada ali təhsilin uzunmüddətli və nəzəri, peşə təhsilinin isə praktik və sürətli olduğunu vurğulayır. Seçimlər də məqsədlərə görə dəyişir.

Şagirdlərin cavabları göstərir ki, ali təhsil peşə təhsilinə nisbətən daha çox hörmət və dəyər qazanır, bu isə cəmiyyətin və ailənin təsiri ilə formalaşır. Peşə təhsili isə hələ də "zəif

oxuyanların yolu" kimi dəyərləndirilir, bu da peşə məktəblərinin imic problemi olduğunu göstərir. Bununla yanaşı, bəzi şagirdlər hər iki təhsil formasının öz yerini və funksiyasını başa düşür, bu da fərqli yanaşmaların formalaşdığını göstərir.

**Tema 2: Peşə təhsilinə münasibəti formalaşdıran amillər**

Layihə əsaslı tədqiqatda Kvemo Kartli regionunda təhsil alan yuxarı sinif şagirdlərinin peşə təhsilinə münasibəti formalaşdıran amillər haqqında fikirləri "Peşə təhsilinə münasibəti formalaşdıran amillər" teması altında təhlil edilmiş və tapıntılar çıxarılmışdır. Əsas tema, subtemalar və tezliklər Cədvəl 3-də təqdim olunur.

**Cədvəl 3. Peşə təhsilinə münasibəti formalaşdıran amillər**

| Tema | Sub- tema | Tezliklər | Respondentlər |
|---|---|---|---|
| Peşə təhsilinə münasibəti formalaşdıran amillər | Ailə təsiri | 7 | R2,R3,R5,R6,R7, R10,R12 |
| | Cəmiyyətin yanaşması və stereotiplər | 6 | R1,R2,R4,R9,R11, R13 |
| | Gələcək planlar və karyera gözləntiləri | 9 | R1,R3,R5,R6,R8, R10,R11,R13,R14 |
| | Məlumat azlığı və qərarsızlıq | 9 | R3,R6,R7,R8,R9, R11,R12,R14,R15 |

**2.1 Sub-tema : Ailə təsiri**

Tədqiqatın nəticələri göstərir ki, Kvemo Kartli bölgəsində şagirdlərin peşə təhsilinə maraq göstərib-göstərməməsində ailənin rolu əhəmiyyətlidir. Valideynlərin təhsil və gələcək barədə gözləntiləri şagirdlərin qərarlarını birbaşa formalaşdırır. Ailələrin əksəriyyəti övladlarının ali təhsil almasını istədiyi üçün peşə təhsili çox vaxt ikinci dərəcəli seçim kimi qəbul edilir. Bu da şagirdlər arasında peşə təhsilinə qarşı tərəddüdlü yanaşmanın əsas səbəblərindən biridir.

*"Peşə təhsilinə çox da marağım yoxdur, çünki ailəm istəyir ki, universitet oxuyum. Onlar peşə məktəbinə bir az zəif baxırlar" (R7).*

*"Ailəmin fikri mənim üçün önəmlidir. Atam həmişə deyir ki, yaxşı oxu, universitetə get. Kollecə getsəm, sanki utanarlar" (R10).*

*"Əslində, mən texniki işlərlə maraqlanıram, amma ailəm deyir ki, universitetdə oxumaq daha yaxşıdır, ona görə peşə məktəbi haqda danışmıram" (R6).*

*"Atam deyir ki, kollecə getsəm, guya peşman olaram. Onlar məni həkim kimi görmək istəyirlər" (R12).*

Respondentlərin cavabları göstərir ki, ailələrin təhsil haqqında təsəvvürləri çox zaman peşə təhsilini az dəyərli və ya yalnız akademik uğur qazanmayan şagirdlər üçün uyğun seçim kimi qəbul etməyə əsaslanır. Bu isə şagirdlərin peşə təhsili ilə bağlı seçimlərinə məhdudiyyət yaradır və onların potensial maraqlarını kölgədə qoyur.

*"Mən bəzən düşünürəm peşə təhsili pis deyil, amma anam deyir ki, universitetə getmək daha yaxşıdır. Ona görə hələ tərəddüd edirəm" (R5).*

*"Bizdə ailədə hamı ali təhsil alıb. Ona görə peşə məktəbinə getsəm, qəribə baxarlar deyə qorxuram" (R3).*

*"Valideynlərim deyir ki, oxuyub universitetə getsəm, gələcəyim daha yaxşı olar. Peşə məktəbi mənə maraqlı gəlsə də, onların fikri mənə təsir edir" (R2).*

Ailə strukturlarında formalaşmış təhsil prioritetləri, şagirdlərin fərdi maraqlarına deyil, daha çox ictimai qəbul edilən uğur modellərinə əsaslanır. Bu isə həm peşə təhsilinin nüfuzuna, həm də şagirdin azad seçiminə təsir göstərir.

## 2.2 Subtema : Cəmiyyətin yanaşması və stereotiplər

Bu subtema çərçivəsində Kvemo Kartli bölgəsində peşə təhsilinə qarşı ictimai münasibətin necə formalaşdığı və mövcud stereotiplərin şagirdlərin seçimlərinə necə təsir etdiyi araşdırılıb. Müsahibələr göstərir ki, peşə təhsili çox vaxt cəmiyyətdə mənfi və ikinci dərəcəli bir seçim kimi qəbul olunur. Bu da şagirdlərin bu sahəyə marağını azaldır və qərarvermə prosesinə birbaşa təsir göstərir.

*"Cəmiyyət peşə məktəblərini ciddi qəbul etmir. Hamı ali məktəb istəyir. Peşə oxuyanları bir az fərqli baxışla qarşılayırlar."(R1)*

*"Bəzi uşaqlar utanır deyə peşə məktəbinə getmir. Çünki başqaları onları zəif hesab edir. Amma məncə bu doğru deyil. Hər kəsin yolu başqadır."(R2)*

*"Çox adam deyir ki, peşə məktəbi yaxşı deyil. Hətta mən də əvvəllər belə fikirləşirdim. Amma indi başa düşürəm ki, peşə bilən adam daha tez pul qazana bilər."(R4)*

Yuxarıdakı cavablar göstərir ki, şagirdlərin çoxu peşə təhsilinə dair ictimai fikirlərlə birbaşa qarşılaşıb. Bu stereotiplər əsasən "peşə məktəbi zəiflər üçündür", "ali təhsil daha prestijlidir" düşüncələrinə əsaslanır. Lakin bəzi şagirdlər bu fikirləri tənqid edir və peşə təhsilinin faydalı ola biləcəyini düşünürlər.

*"Cəmiyyətdə elə bilirlər ki, peşə məktəblərinə yalnız zəif oxuyan uşaqlar gedir. Amma bu düzgün fikir deyil. Orada da normal təhsil almaq olur."(R9)*

*"Peşə təhsili adətən o uşaqlar üçündür ki, universitetə girə bilmirlər. İnsanlar belə deyir. Amma mən düşünürəm ki, yaxşı müəllimlər və şərait olsa, hər iki yerdə uğur qazanmaq olar."(R11)*

*"Məncə, cəmiyyət çox zaman peşə məktəbinə dəyər vermir. Ona görə də uşaqlar ora getməyə çəkinir."(R13)*

Şagirdlərin cavablarından aydın olur ki, cəmiyyətin peşə təhsilinə olan yanaşması onların bu sahəyə marağına və qərar vermə prosesinə ciddi təsir göstərir. Əksər hallarda bu yanaşma mənfi və stereotipikdir  yəni, peşə təhsili "ikinci seçim", "zəiflərin yolu" kimi görülür. Bununla belə, bəzi şagirdlər artıq bu stereotipləri sorğulamağa başlayır və peşə təhsilinin də dəyərli ola biləcəyini anlayırlar. Bu isə sosial baxışların tədricən dəyişə biləcəyini göstərir.

**2.3 Subtema :Gələcək planlar və karyera gözləntiləri**

Kvemo Kartli bölgəsində yuxarı sinif şagirdlərinin gələcək planları əsasən ali təhsil almaq və prestijli hesab edilən sahələrdə karyera qurmaq istiqamətində formalaşır. Müsahibələr göstərir ki, şagirdlərin çoxu ali məktəbə qəbul olmaq istəyir və bu məqsədlə hazırlaşır. Peşə təhsilinə maraq isə ya alternativ seçim kimi, ya da çox az hallarda ilkin seçim kimi səslənir.

*"Orta məktəbi bitirdikdən sonra gələcəyə dair planım ali məktəbin inşaat sektorunda oxumaqdır."(R1)*

*"Ali məktəbə qəbul olub, proqramistlik peşəsində oxumaq istəyirəm."(R3)*

*"Tbilisi Dövlət Universitetinin Tibb fakultəsinə qəbul olmaq istəyirəm. Gələcəkdə yaxşı bir həkim olardım."(R5)*

*“Əgər universitet alınmasa, yaxşı bir peşə məktəbinə getmək olar. Xüsusilə kompüter və texnologiya sahəsində.”(R6)*

*“İT və ya proqramlaşdırma sahəsində oxumaq istəyirəm. Əgər imkan olsa, xaricdə təhsil almağı da düşünürəm.”(R8)*

*“Əslində bu haqda heç nə fikirləşməmişəm. Amma hər hansısa bir peşəyə yiyələnmək istərdim.”(R10)*

Müsahibələrdən göründüyü kimi, şagirdlərin əksəriyyəti ali təhsili daha prestijli və uğurlu gələcəyin açarı kimi görür. Bu, həm ictimai təsirlərdən, həm də şəxsi ambisiyalardan qaynaqlanır. Peşə təhsili çox zaman yalnız alternativ yol kimi nəzərdən keçirilir və bu yanaşma da cəmiyyətin ümumi baxışını əks etdirir.

*“Gələcəklə bağlı planlarım ali məktəbə daxil olmaq və moda dizayneri yaxud psixologiya ixtisasında oxumaqdır.”(R11)*

*“Bilmirəm hələ... Bəzən düşünürəm ki, işləyim, ailəyə kömək edim. Universitetə girmək çətin görsənir.”(R13)*

*“Əvvəlcə peşə təhsilinə daxil olub bəzi bilikləri mənimsəyib sonra ali məktəbdə davam etdirmək istəyirəm.”(R14)*

Kvemo Kartlidə şagirdlərin gələcəyə dair baxışları ümumən ali təhsilə yönəlib. Peşə təhsili isə daha çox “ikinci seçim” kimi qəbul olunur. Bu yanaşmanın formalaşmasında həm cəmiyyətin baxışı, həm də ali təhsilin prestijli sayılması əsas rol oynayır. Bununla belə, texnologiya və proqramlaşdırma kimi sahələrdə bəzi şagirdlər peşə təhsilini də potensial fürsət kimi dəyərləndirir. Bu da göstərir ki, düzgün məlumatlandırma və peşə təhsilinin cəlbedici təqdimatı bu sahəyə marağı artıra bilər.

**2.4 Subtema : Məlumat azlığı və qərarsızlıq**

Kvemo Kartli bölgəsində aparılan müsahibələr göstərir ki, peşə təhsili ilə bağlı qərarvermə prosesində şagirdlərin bir qismi yetərincə məlumatlı deyil və bu da onların seçimlərini qeyri-müəyyən edir. Bu qərarsızlıq həm təhsil forması, həm də peşə sahələri barədə səthi bilgilərin olmasından qaynaqlanır.

*"Peşə proqramları haqqında tam məlumatım yoxdur. Yaxınlardan eşitdiyim qədəri – Tibb."(R3)*

*"Peşə təhsili haqqında məlumatım yoxdur. Amma tanıdığım Marneuli İctimai Kollecidir."(R6)*

*"Əgər universitet alınmasa, yaxşı bir peşə məktəbinə getmək olar... Amma tam qərar verməmişəm."(R7)*

*"Tam məlumatım yoxdur deyə konkret fikir bildirə bilmərəm."(R8)*

*"Ali təhsil istərdim. Dəqiq bilmirəm, düşünürəm, qərarsızam."(R9)*

*"Mən də peşə məktəbləri haqqında az məlumatlı olduğum üçün tam əmin deyiləm."(R11)*

Respondentlərin cavablarında "tam bilmirəm", "eşitmişəm", "əmin deyiləm" kimi ifadələrin təkrarlanması onların peşə təhsili barədə kifayət qədər məlumatlandırılmadığını göstərir. Bu da gələcəklə bağlı qərar verməkdə tərəddüdlərə yol açır. Eyni zamanda bu, peşə təhsili müəssisələrinin regionda informasiya yayımının zəif olduğunu da göstərir.

*"Hansı məktəblər var, onu bilmirəm, amma deyirlər ki, Tbilisidə belə məktəblər var."(R12)*

*"İndi elə də fikrim yoxdur. Amma vaxt gələndə bəlkə baş vuraram."(R14)*

*"Peşə məktəbləri haqqında tam məlumatım olmadığım üçün dəqiq nəsə deyə bilmirəm."(R15)*

Müsahibə nəticələri göstərir ki, Kvemo Kartli bölgəsində bir çox şagirdin peşə təhsili ilə bağlı məlumatı ya ümumidir, ya da ümumiyyətlə mövcud deyil. Bu səbəbdən onların bu sahəyə

marağı ya zəifdir, ya da qərarsızlıq şəklində özünü göstərir. İnformasiya çatışmazlığı yalnız seçimləri məhdudlaşdırmır, həm də potensial imkanların fərqinə varmağı əngəlləyir.

**Tema 3: Peşə təhsilinə marağı artırmaq üçün ehtiyaclar və təkliflər**

Layihə əsaslı tədqiqat çərçivəsində Kvemo Kartli regionunda təhsil alan yuxarı sinif şagirdlərinin peşə təhsilinə marağını artırmaq üçün vacib hesab etdikləri ehtiyaclar və verdikləri təkliflər "Peşə təhsilinə marağı artırmaq üçün ehtiyaclar və təkliflər" əsas teması altında təhlil edilmiş və müvafiq altmövzular əsasında qruplaşdırılmışdır.

**Cədvəl 3. Peşə təhsilinə marağı artırmaq üçün ehtiyaclar və təkliflər**

| Tema | Sub- tema | Tezliklər | Respondentlər |
|---|---|---|---|
| Peşə təhsilinə marağı artırmaq üçün ehtiyaclar və təkliflər | Maarifləndirmə və təqdimat ehtiyacı | 4 | R7,R9,R12,R13 |
| | Müasir və maraqlı tədris şəraiti | 5 | R3,R4,R6,R9,R12 |
| | Yeni və cəlbedici ixtisaslar | 5 | R1,R5,R7,R8,R14 |
| | Əsas suallara aydın cavab çatışmazlığı | 5 | R5,R8,R10,11,R15 |

**3.1 Subtema : Maarifləndirmə və təqdimat ehtiyacı**

Şagirdlər arasında peşə təhsili ilə bağlı bilik səviyyəsi çox zəifdir. Onların əksəriyyəti bu təhsil formasını yalnız ümumi şəkildə tanıyır və ətrafdan eşitdikləri məlumatlarla yönlənirlər. Bu isə seçimlərində qeyri-müəyyənlik yaradır.

*"Əgər müəllimlər gəlib bizə yaxşı başa salsalar, biz də daha yaxşı anlayarıq. Sadəcə biz bilmirik nədir bu məktəblər." (R7)*

*“Məktəbdə tədbirlər olanda, məcburi gəlirik, amma elələri olur ki, maraqlı danışan qonaq gəlir, onda başa düşürük ki, nədir bu.” (R9)*

*“Əgər uğurlu olanlar gəlib danışsalar, biz də maraqlanardıq. Bilmək istəyirik ki, orda oxuyub nə olmaq olar.” (R12)*

*“Müəllimlər bir dəfə də təqdimat keçsə, bəlkə bizim də marağımız oyanar.”* (R13)

Cavablar göstərir ki, şagirdlər vizual və real təcrübəyə əsaslanan təqdimatlara ehtiyac duyurlar. Onlar mücərrəd danışıqdan daha çox konkret həyat nümunələri ilə maraqlanır və informasiya boşluğu səbəbindən qərar verə bilmirlər.

### 3.2 Subtema : Müasir və maraqlı tədris şəraiti

Təhsil müəssisələrinin fiziki infrastrukturu, dərslərin təqdimat üslubu və müəllimlərin yanaşması şagirdlərin marağını formalaşdıran əsas komponentlərdəndir. Şagirdlər quru və formal dərslərdə iştirakdan çəkinir.

*“Deyirlər bəzi müəllimlər dərsi elə maraqsız keçir ki, heç dinləmək istəmirik.” (R3)*

*“Əgər məktəbdə yaxşı avadanlıqlar olsa, məsələn, kompüterlər, mətbəx avadanlığı – uşaqlar özləri də görüb sevir.” (R4)*

*“Bizim məktəbdə tədbirlər olur, amma çox vaxt sadəcə danışırlar. Göstərsələr, biz də özümüz baxsaq, bəlkə marağımız artar.” (R6)*

*“Dərslər çox maraqsız keçir. Amma kompüter dərslərində işləyəndə sevinirəm.” (R9)*

*"Müəllim uşağa necə yanaşırsa, maraq da elə olur. Əgər müəllim dərsi xoş keçirirsə, mən də motivasiyalı oluram." (R12)*

Şagirdlər üçün dərsin forması məzmun qədər önəmlidir. Onların motivasiyası vizual və praktik elementlərlə artır. Müasir təhsil metodlarının tətbiqi və şəraitin cazibədar olması bu marağı dəstəkləyir.

**3.3 Subtema : Yeni və cəlbedici ixtisaslar**

Ənənəvi ixtisaslar bəzi şagirdlər üçün artıq cazibəsini itirib. Onlar daha çox texnologiya yönümlü və gələcəyə adaptasiya olunan sahələrə maraq göstərirlər.

*"Əgər hüquq və ya başqa sahələr də olsa, bəlkə daha çox adam gedərdi." (R1)*

*"Süni intellekt, oyun dizaynı və ya beynəlxalq ticarət olsa, daha maraqlı olardı." (R5)*

*"Peşə məktəbində niyə yalnız aşpazlıq ya da bərbərlik olmalıdır? İT sahəsi, dizayn və başqa peşələr də olsa maraqlı olar." (R7)*

*"Tibb bacısı, müəllimlik kimi peşələr çox tanınır, amma daha fərqli sahələr olsa daha yaxşı olar." (R8)*

*"Bank işi, kompüter texnologiyaları maraqlı gəlir. Elə proqramlar olsa gedərdim." (R14)*

Şagirdlərin seçimi gələcəyin bazar tələblərinə və şəxsi maraqlarına uyğunlaşma istəyindən irəli gəlir. Onlar stereotipləşmiş ixtisaslarla məhdudlaşmaq istəmirlər.

**3.4 Subtema : Əsas suallara aydın cavab çatışmazlığı**

Peşə təhsili ilə bağlı texniki detalların (qəbul, diplom, iş imkanları və s.) çatdırılmaması şagirdlərin qərarsızlığına səbəb olur.

*"Mən bilmək istəyirəm ki, qəbul necə olur, neçə il oxuyurlar və nə sənəd verilir." (R5)*

*"Oxuyub da işləyə bilməyəcəksənsə, onda niyə gedəsən?" (R8)*

*“Qəbul nə vaxt olur, imtahanla olur ya yox, pulludurmu – bunları bilmədən necə qərar verim?” (R10)*

*“Diplom verirlərmi, hər kəs girə bilərmi, bu barədə heç məlumatımız yoxdur.” (R11)*

*“Peşə təhsili ilə bağlı o qədər sualım var ki, heç kimə soruşacaq yer tapmıram.”(R15)*

Cavablar göstərir ki, şagirdlərdə etibarlı və sistemli informasiya çatışmır. Bu, təhsil seçiminə birbaşa təsir göstərir.

## V FƏSİL

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Layihə əsaslı tədqiqat Gürcüstanın Kvemo Kartli bölgəsindəki ictimai məktəblərdə təhsil alan yuxarı sinif şagirdlərinin peşə təhsili haqqında biliklərini, bu sahəyə münasibətlərini və seçimlərini müəyyən etməyə yönəlmişdir. Nəticələr göstərdi ki, respondentlərin əksəriyyəti peşə təhsili barədə məhdud məlumatlara malikdir və bu məlumatların əsas mənbəyi məktəb daxilində deyil, şəxsi müşahidələr və ya təsadüfi sosial çevrədən gəlir. Bu tapıntı YUNESKO (2016) və OECD (2010) kimi qurumların sənədlərində vurğulanan "peşə təhsili haqqında sistemli maarifləndirmənin" əhəmiyyətini bir daha təsdiqləyir.

Tədqiqat nəticələri, həmçinin, Kvemo Kartli bölgəsində peşə təhsilinə marağın zəif olmasının bir sıra sosial və struktur səbəblərlə əlaqəli olduğunu göstərdi. Şagirdlərin əksəriyyəti peşə təhsilini yalnız “daha zəif” şagirdlər üçün nəzərdə tutulmuş yol kimi qəbul etdiklərini bildirdilər. Bu yanaşma Banduranın Sosial Öyrənmə Nəzəriyyəsinə uyğun şəkildə, ailə və icma təsirlərinin şagird seçimlərinə güclü təsir etdiyini göstərir. Çünki valideynlər və icmalar tərəfindən peşə təhsili hələ də ikinci dərəcəli bir yol kimi qiymətləndirilir (Chkhenkeli, 2020; Makasarashvili və b., 2022).

Respondentlərin böyük bir hissəsi yerli peşə məktəblərində təklif olunan ixtisasların müasir əmək bazarının tələblərinə uyğun olmadığına dair ümumi inama malikdir. Bu nəticə Təhsilin Uyğunlaşdırılması Nəzəriyyəsinin əsas müddəaları ilə səsləşir yəni təhsil əmək bazarının real ehtiyacları ilə uyğun olmadıqda, həmin təhsil növünə olan tələb və inam azalır (Rigolini və b., 2022; Giguashvili və Makasarashvili, 2023).

Şagirdlərin cavabları həmçinin göstərdi ki, peşə təhsilinə marağın artırılması üçün müasir ixtisasların təqdim olunması, infrastrukturun təkmilləşdirilməsi, maraqlı və texnologiyaya əsaslanan tədris metodlarının tətbiqi vacibdir. Bu yanaşma Amartya Sen-in Qabiliyyət Yanaşması ilə uyğun gəlir, fərdlərin seçimləri yalnız iqtisadi deyil, sosial və şəxsi inkişaf imkanları baxımından da dəyərləndirilir. Əgər peşə təhsili şagirdlərə yalnız iş imkanı deyil, eyni zamanda sosial status, şəxsi inkişaf və cəmiyyətə töhfə imkanları da vəd etməzsə, ona maraq göstərilməyəcək (Sen, 1999; Gigiberia, 2018).

